www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-16 (1777) 30 sentyabr 2023-cü il



## Böyük Elmi Şuranın yeni tədris ilində ilk iclası keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Universitetimizə marağın xeyli yüksəlməsi məmnunluqla yanaşı, həm də böyük məsuliyyət yaradır**

səh. 3

### Şəhidlərimiz arasında ATU-nun məzunu da var

səh. 2

### Tələbəmiz karate üzrə dünya ikincisi olub

səh. 8

### Azərbaycanda cərrahiyyənin sürətli inkişafı son 30 ilə təsadüf edir

səh. 4



### ATU dörd tələbəsini Türkiyəyə göndərdi

Rektor, professor Gəray Gəraybəyli tələbələr və onların valideynləri ilə görüşüb

səh. 2

### “Xəstələr ağciyər xərçəngindən çox, vərəmdən qorxur...”

*Dosent Rafiq Bayramov: Cəmiyyətdə bu xəstəliyə münasibət dəyişməlidir*

səh. 5

### Ənənəvi seminarlar yeni tədris ilində də davam edir

*Rezidentlər üçün tibbin ən müasir sahələrini əhatə edən mövzular müzakirəyə çıxarılır*

səh. 4



### Hər fakültənin güclüsü

Yüksək bal toplayanlar bizi seçir

səh. 2

## Şəhidlərimiz arasında ATU-nun məzunu da var



**Sentyabrın 19-da erməni silahlılarının terrorçu fəaliyyəti nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Daxili İşlər Nazirliyinin əməkdaşları həlak oldu.**

Bundan bir neçə saat sonra Azərbaycan Silahlı Qüvvələri antiterror əməliyyatlarına start verdi. Və heç 24 saat tamam olmamış qarşı tərəf ağ bayraq qaldıraraq, rəsmi Bakının irəli sürdüyü bütün şərtləri qəbul etdi. Çox təəssüf ki, ölkəmizin suverenliyi uğrunda həyata keçirilən bu əməliyyat da itkisiz ötüşmədi.

Antiterror əməliyyatı zamanı həyatını itirən şəhidlərimizdən biri də Azərbaycan Tibb Universitetinin məzunu, tibb xidməti giziri Seymur Sabir oğlu Şabıyevdir.

Seymur 16 iyun 1997-ci ildə Cəlilabad rayonunun Mirzəli kəndində anadan olub. 2014-cü ildə Cəlilabad rayon Hacıməmmədli kənd orta məktəbini bitirib. Elə həmin il Azərbaycan Tibb Universitetinə hərbi feldşer ixtisasına qəbul olunub. 2016-cı ildə universiteti bitirərək, hərbi feldşer kimi xidmətə başlayıb.

Qeyd edək ki, o, 44 günlük Vətən müharibəsində də iştirak etmiş və təltif olunmuşdu.

Azərbaycan Tibb Universitetinin rəhbərliyi və bütün kollektivi şəhidimizə Allahdan rəhmət, yaxınlarına səbr diləyir. Onun xatirəsi daim qəlbimizdə yaşayacaq!

# ATU dörd tələbəsini Türkiyəyə göndərdi

### Rektor, professor Gəray Gəraybəyli tələbələr və onların valideynləri ilə görüşüb

**Azərbaycan Tibb Universitetində (ATU) Tibb bacısı ixtisası üzrə təhsil alan 4 tələbə universitet xətti ilə payız semestri üçün Türkiyəyə praktikaya göndərilir.**



Məlum olduğu kimi, bir neçə ildir ATU-nun İctimai səhiyyə fakültəsinin tərkibində Tibb bacısı ixtisası yaradılıb. Orhun mübadilə proqramı çərçivəsində 4 tələbəmiz payız semestrini Türkiyənin Ege və Qazi universitetlərində keçirəcək.

Tələbələr və onların valideynləri ilə görüşən ATU-nun rektoru, professor Gəray Gəraybəyli yeni ixtisasın önəmindən danışıb: "Universitetimiz üçün Tibb bacısı ixtisası üzrə ali təhsil vermək çox aktual idi. Artıq xeyli müddətdir ki, Avropada, Türkiyədə, dünyanın inkişaf etmiş ölkələrində bu ixtisasa böyük önəm verilir".

Rektor əlavə edib ki, bu il Tibb bacısı ixtisası üçün magistratura master proqramı da hazırlanıb.

Görüşdə iştirak edən valideynlər tələbələr üçün yaradılan bu imkana görə universitet rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Orhun mübadilə proqramı Türk Universitetləri Birliyinə üzv olan təhsil müəssisələri arasında həyata keçirilir. ATU bu təşkilatın qurucularından biri və üzvüdür.

## ATU və RBU-nun nümayəndə heyəti İstanbulda

### ICME-2023-ə hazırlıq çərçivəsində görüşlər keçirilib



**Xəbər verdiyimiz kimi, 7-10 oktyabr 2023-cü il tarixlərində Azərbaycan Tibb Universitetində Pakistanın Riphah Beynəlxalq Universiteti (RBU) ilə birgə Tibb təhsili üzrə 8-ci beynəlxalq konqres (ICME-2023) keçiriləcək.**

Konqresə hazırlıq çərçivəsində ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov RBU-nun nümayəndə heyəti ilə birlikdə Türkiyənin İstanbul şəhərində yerləşən bir neçə universitetdə işgüzar səfərdə olub. RBU-nu səfərdə universitetin rektoru Hassan Muhammad Khan və prorektor müavini, professor Yavər Hayat Khan təmsil ediblər. Nümayəndə heyəti 3 gün ərzində Yeditepe, İstanbul Universiteti-Cerrahpaşa, Altınbaş, İstanbul Aydın və İstinye universitetlərinin rəhbərlikləri ilə görüşlər keçirib. Görüşlərdə ICME-2023 haqqında ətraflı məlumat verilməklə yanaşı, ATU və RBU-nun qardaş Türkiyə universitetləri ilə gələcək qarşılıqlı əməkdaşlıq planları da müzakirə edilib.

## Hər fakültənin güclüsü

### Yüksək bal toplayanlar bizi seçir

**Hər il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan tələbələrin əksəriyyəti Azərbaycan Tibb Universitetini seçir. Bu hal bu il də dəyişməyib. Onlardan bir neçəsinin fikirlərini öyrəndik.**



**Fidan Rəhimova** 685.3 balla Müalicə-profilaktika fakültəsinə qəbul olunub: "Mən IV qrup üzrə imtahan verən abituriyentlər arasında respublika üzrə 2-ci yeri tutmuşam. Həkim olmaq uşaqlıqdan arzum idi. Bu səbəbdən Azərbaycan Tibb Universitetinə daxil olmaq istəyirdim. Çox xoşbəxtəm ki, hədəfimə çatdım".

**Turani Məhərrəmli** 684.2 bal toplayıb. Gələcəyin cərrahı olmaq niyyətindədir: "98 saylı Kəlbəcər rayon tam orta məktəbini bitirmişəm. Özüm Gəncə şəhərində yaşayırdım. Məni hazırlaşdıran müəllimlərimi salamlayıram. Uşaqlıq arzuma çatdığım üçün həyəcanlı və xoşbəxtəm".

**Solmaz Əliyeva** 682.3 balla Stomatologiya fakültəsinin tələbəsi olmaq hüququ qazanıb: "Bu qədər bal toplamağıma baxmayaraq, ixtisas seçimində ilk yerdə Stomatologiya fakültəsinin adını qeyd etmişdim. Çünki əvvəldən məqsədim stomatoloq olmaq idi. Məqsədimə çatmaqda mənə hərtərəfli dəstək göstərən müəllimlərimə təşəkkür edirəm. Yaxşı ki, varsınız!"

**Ayşən Hümbətova** 565.1 balla İctimai səhiyyə fakültəsinin İctimai səhiyyə ixtisasına qəbul olunub. Bu uğurlu nəticədə əməyi olan müəllim və valideynlərinə dərin təşəkkürünü bildirir.

**Leyla Qədirova və Rabit Arixov** eyni - 548.2 bal toplayıblar. Sevinclərini ifadə edən, arzularına çatdıqları üçün özlərini xoşbəxt hiss etdiklərini deyən gənclər Əczaçılıq fakültəsində təhsil alacaqlar.

ATU-nun tələbəsi adını qazanan hər kəsi təbrik edir, təhsildə uğurlar arzulayırıq!

# Hər dərdin öz dərmanını bilənlər

### Fərəh Mədətli: Əhalinin təhlükəsiz dərman vasitələri ilə təmin edilməsi ən aktual məsələlərdəndir



**25 Sentyabr - Beynəlxalq Əczaçı Günüdür. Əczaçılıq deyəndə, ilk növbədə ağla xalq təbabəti, dərmanlar, elmi araşdırmalar gəlir. Xəstə hər hansı bir dərmanı əldə edənə kimi, onu bütün mərhələlərdə bir əczaçı müşayiət edir. Bu mütəxəssisin işi dərman vasitələrinin məsuliyyətli istifadəsinə zəmanət verməkdir.**

Bu günün tarixi ilə bağlı ATU-nun Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli bizimlə fikirlərini bölüşüb: "Beynəlxalq Əczaçı Günü 2009-cu ilin 25 sentyabr tarixində Beynəlxalq Əczaçılıq Federasiyası tərəfindən İstanbulda keçirilən konqresdə təsis edilib. Əhalinin təhlükəsiz dərman vasitələri ilə təmin edilməsi müasir dövrdə ən aktual məsələlərdən biridir. Statistika onu göstərir ki, dərman vasitələrinin təhlükəsizliyi problemi artıq millilikdən çıxaraq qlobal xarakter alıb".

Azərbaycanda əczaçılıq elminin yaranması və inkişafı barədə danışan F.Mədətli deyib ki, ölkəmizdə ali əczaçılıq təhsilinə 1938-ci ildən başlanılıb və Bakıda Azərbaycan Dövlət Əczaçılıq İnstitutu təşkil edilib: "Lakin 1941-1945-ci illərdə İkinci dünya müharibəsi zamanı institut əməkdaşlarının bir hissəsi ordu sıralarına cəlb edildiyindən, tədris prosesində ciddi çətinliklər yaranır. 1942-ci ildə bu institut ləğv edilərək onun bazası və tələbələri Azərbaycan Dövlət Tibb İnstitutunda təşkil edilən Əczaçılıq fakültəsinə verilir. Hazırda Azərbaycanda 5000-dən artıq ali təhsilli əczaçı bakalavr və magistr var. Onların demək olar ki, hamısı ATU-nun Əczaçılıq fakültəsinin məzunlarıdır. Fakültənin kafedraları yüksək ixtisaslı əczaçı kadrlar hazırlamaqla yanaşı, eləcə də elmi-pedaqoji kadrların hazırlanmasında yaxından iştirak edir".

Fərəh xanım əlavə edib ki, bu gün ölkədə ali təhsil sistemində aparılan islahatlar ali əczaçılıq təhsilində də öz əksini tapıb: "Belə ki, fakültədə çoxpilləli təhsil sisteminə (bakalavr, magistr) keçilib. Fakültədə həm xarici ölkə vətəndaşları, həm də bizim tələbələr müvafiq olaraq Azərbaycan, rus və ingilis dillərində bakalavr və magistr pillələrində təhsil alırlar. Hazırda fakültəmizdə 411 bakalavr və 2 kurs, 5 ixtisas üzrə 39 magistr təhsil alır. Yaxın gələcəkdə ixtisasların artırılacağı gözlənilir.

ATU-nun Müalicə işi, Əczaçılıq və Stomatologiya ixtisasları üzrə tədris proqramlarının Azərbaycan səhiyyəsi tarixində ilk dəfə olaraq beynəlxalq akkreditasiyadan keçməsi universitetimizin beynəlxalq arenada nüfuzunun yüksəlməsi, reytinq siyahılarında daha yüksək yerlər əldə etməsi deməkdir. Bu həm xarici tələbələrimizin sayını artırmaq, həm də məzunlarımızın diplomlarının xarici ölkələr tərəfindən tanınması və onların nüfuzlu tibb müəssisələrində iş tapması baxımından irəliyə doğru böyük bir addımdır".

Dekan vurğulayıb ki, Beynəlxalq Əczaçı Günü - səhiyyə sistemində əczaçıların işinin əhəmiyyətini anlamaq üçün yaxşı bir fürsətdir: "Bütün dünyada farmasiya elminin və praktikasının minlərlə nümayəndəsi hər gün dərman vasitələrinin təhlükəsiz, effektiv və səmərəli istifadəsi məqsədilə xəstələrlə ünsiyyətdədir.

Bu məsuliyyətli peşənin bir nümayəndəsi olaraq, bütün əczaçılarımızı və Əczaçılıq fakültəsinin tələbələrini ürəkdən təbrik edirəm".

**Azərbaycan Tibb Universitetinin 25 iyun 2023-cü ildə keçirilmiş Böyük Elmi Şurasının qərarına əsasən, universitetin nəzdində psixoloji mərkəz yaradılıb.**



# Universitetimizin nəzdində psixoloji mərkəz yaradılıb

Mərkəzdə professor-müəllim və işçi heyətinə, o cümlədən tələbələrə psixoloji yardım göstərilir. Şəxsi həyatında, sosial mühitlə bağlı, həmçinin adaptasiya olunmaqda çətinliklər yaşayan həkim, müəllim və ya inzibati-texniki işçilər, eləcə də tədrisdə problemləri olan tələbələr bu mərkəzə müraciət edə bilərlər.

Mərkəz ATU-nun beş klinik psixoloqunun fəaliyyətini əhatə edir. Belə ki, Tədris Terapevtik Klinikada 3, Lökbatan poliklinikasında 1 və Yasamal rayonunda yerləşən 16 saylı poliklinikada 1 nəfər olmaqla, mütəxəssislər ehtiyacı olanları qəbul edir. Bununla əməkdaşlara və tələbələrə yaxın yerləşmək məsələsi nəzərə alınıb.

İş qrafiki səhər saat 9-dan axşam saat 6-ya kimidir. Konsultasiyalar 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparıldığından, xarici tələbələr də müraciət edə bilər.

**ATU-nun Böyük Elmi Şurasının 2023-2024-cü tədris ilində ilk yığıncağı sentyabrın 26-da keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq şura üzvlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edib.**

# Böyük Elmi Şuranın yeni tədris ilində ilk iclası keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Universitetimizə marağın xeyli yüksəlməsi məmnunluqla yanaşı, həm də böyük məsuliyyət yaradır




Gündəlikdə duran məsələlərin müzakirəsindən öncə II Qarabağ müharibəsindən 3 il ötdüyünü xatırladan rektor, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun şanlı qələbəsindən danışıb. O, 44 günlük Vətən müharibəsində 30 il işğal altında qalan torpaqlarımızın azad edildiyini, bu il sentyabrın 20-də isə 24 saatdan da az müddətdə həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində Azərbaycanın öz suverenliyini tam bərpa etdiyini diqqətə çatdırıb. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə və antiterror əməliyyatı zamanı həyatlarını itirən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Bundan sonra AMEA-nın müxbir üzvü, professor Sudeyf İmamverdiyevi 85, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramovu isə 60 illik yubileyi münasibətilə təbrik edən rektor, 42 il ATU-nun Elmi Tədqiqat Mərkəzinə uğurla rəhbərlik edən və bu günlərdə öz ərizəsi ilə vəzifədən gedərək estafeti gənc kadrlara ötürən professor Qalib Qarayevin xidmətlərini də yüksək qiymətləndirib.

Daha sonra rektorun müvafiq əmri ilə müxtəlif vəzifələrə yeni təyinatlar haqqında məlumat verilib və gündəlikdə duran məsələlərin müzakirəsinə başlanılıb. Əvvəlcə universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin "Azərbaycan Tibb Universitetində 2022/2023-cü tədris ilinin yekunları və 2023/2024-cü tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi dinlənilib.

Təhsili hər bir cəmiyyətin inkişafını sürətləndirən ən mühüm sahələrdən biri kimi səciyyələndirən S.Əliyev bildirib ki, hər bir təhsil ocağının qazandığı uğurlar, təhsilalanların əldə etdikləri nailiyyətlər gələcək nəslin inkişafına öz töhfəsini verir. Burada diqqətdə saxlanılacaq ən başlıca məqam ali məktəblərdə tədrisin, təlim-tərbiyə işinin düzgün və məqsədəuyğun şəkildə aparılmasıdır. Bu baxımdan universitetin professor-müəllim, inzibati-təsərrüfat işçiləri və tədris-köməkçi heyəti, həmçinin tələbə və magistrant, doktorantlarının 2022/2023-cü hesabat ilində öz üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirdiklərini söyləyən prorektor, tədris, tədris-metodik, elmi-tədqiqat, gənc nəslin milli zəmində tərbiyəsi, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində xeyli işlər gördüyünü, həmçinin universitetin elmi-tədqiqat hissəsinin də xeyli məhsuldar işlədiyini vurğulayıb: "Universitetin nəzdində 3 elmlər doktoru, 3 fəlsəfə doktoru üzrə dissertasiya şuraları fəaliyyət göstərməkdədir. Bu dissertasiya şuralarının ixtisaslar üzrə keçirilən elmi seminarların tərkibləri hazırlanmış və təsdiq edilmişdir. Bundan başqa, dissertasiya şuralarında müxtəlif istiqamətlər üzrə birdəfəlik dissertasiya şuraları yaradılmış və müdafiəsi keçirilmişdir. Bu dövrdə əməkdaşlarımızdan 10 nəfər professor, 14 nəfər dosent elmi adının təsdiqi üçün AAK qarşısında vəsadət qaldırmışdır.

Universitet əməkdaşlarının elmi-tədqiqat işləri "Əhalinin sağlamlığının qorunması" proqramına müvafiq olmaqla 3 elmi istiqamət, 9 problem üzrə yerinə yetirilmişdir.

Elmi işlərin nəticələrinə görə universitetin əməkdaşları tərəfindən 20 monoqrafiya (18-i respublikada, 2-si xaricdə), 2 milli rəhbərlik, 17 dərslik, 46 dərs vəsaiti, 3 kitabça və sorğu ədəbiyyatı, 5 elmi əsərlər məcmuəsi, 25 metodik ədəbiyyat dərc edilmişdir.

Universitetin əməkdaşları xaricdə 714, eləcə də respublikamızın dövri mətbuatında 1097 elmi iş çap etdirmiş və müntəzəm olaraq çıxışlar etmişlər. 2022-ci ildə 4 ixtiraya görə Avrasiya patenti, 4 ixtiraya görə Azərbaycan patenti alınmışdır".

Qeyd olunub ki, ATU-nun alimləri uzaq və yaxın xaricdə, respublikamızda keçirilən 112 konqres, konfrans və qurultayda iştirak etməklə yanaşı, məruzələrlə də çıxışlar ediblər. Hesabat ilində Azərbaycan Tibb Uni-



versitetinin təsisçiliyi ilə "Sağlamlıq" elmi-praktik tibb jurnalı, "Azərbaycan əczaçılıq və farmakoterapiya jurnalı", "Azərbaycan psixiatriya jurnalı", "Azərbaycan Allerqologiya və Klinik İmmunologiya jurnalı" və çoxtirajlı "Təbib" qəzeti də öz fəaliyyətlərini davam etdirib.

S.Əliyev 2023/2024-cü tədris ilində də universitetin I kursuna və Hərbi Tibb fakültəsinin hərbi feldşerlər məktəbinə qəbulun Dövlət İmtahan Mərkəzi tərəfindən aparıldığını söyləyib. Onun sözlərinə görə, universitetin Hərbi tibb fakültəsinə qəbul Müdafiə və Ədliyyə nazirliklərinin sifarişlərinə əlavə olaraq, Daxili Qoşunlar və Sərhəd Qoşunlarının sifarişləri də nəzərə alınmaqla aparılıb. Bu il fakültəyə hərbi tibb ixtisası üzrə 57 nəfər (onlardan 4 nəfəri stomatologiya ixtisası üzrə), hərbi feldşer ixtisası üzrə isə 76 nəfər qəbul olunub.

Hesabatda universitetimizə bu il qəbul edilmiş tələbələrin test imtahanlarında yüksək nəticələr göstərməsi və 979 tələbədən 367 nəfərinin 600-dən yuxarı bal toplayaraq əlaçı tələbələr hesab olunması da öz əksini tapıb. Qeyd edilib ki, ölkə başçısının Sərəncamına əsasən təyin olunmuş 102 Prezident təqaüdçüsünün 25 nəfəri bizim universiteti seçib: "Artıq neçənci ildir ki, ən çox Prezident təqaüdçüləri ATU-ya daxil olur. Amma təəssüf ki, I kursun ilk imtahan sessiyasından başlayaraq Prezident təqaüdçülərinin sayı kəskin surətdə azalır. Belə ki, cari tədris ili istisna olmaqla, son 5 ildə universitetə 121 nəfər Prezident təqaüdçüsü daxil olsa da, hazırda bu adı 21 tələbə daşıyır.

Universitet rəhbərliyi bir daha Elmi Şura üzvlərinin nəzərinə çatdırır ki, universitetə yüksək balla daxil olan və Prezident təqaüdçüsü adına layiq görülən tələbələr daim diqqətdə saxlanılmalı, Tələbə Elmi Cəmiyyətinin işinə cəlb edilməlidir".

Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayının ildən-ilə artdığını deyən məruzəçi bildirib ki, tədrisin ingilis dilində aparılması xarici ölkə vətəndaşlarının universitetə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir: "Xarici tələbələrlə iş üzrə dekanlıq Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq onların qeydiyyatını təşkil edir, yataqxanada yaşayan tələbələrin məişət şəraiti ilə maraqlanır. Tədris ili ərzində tələbələrin yaşayış şəraitinin yaxşılaşdırılması universitetimizin rektorunun və adıçəkilən dekanlığın diqqət mərkəzində olub".

Beləliklə, 2022/2023-cü tədris ilində tədris, tədris-metodik, elmi-tədqiqat işləri və universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında məlumat verən, Apellyasiya Komissiyasının işinin keyfiyyətinin artırılması, üzvlərin əmək fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə təkliflərini şura üzvləri ilə bölüşən prorektor, çıxışının sonunda universitet kollektivinin cari tədris ilində əvvəllər buraxılmış nöqsanları aradan qaldırmağa, tələbələrlə aparılan tədris və tədris-metodik işi günün tələblərinə uyğun qurmağa çalışacağına əminliyni ifadə edib.

Məruzə ətrafında çıxış edənlər müzakirəyə çıxarılan məsələlərlə bağlı fikirlərini bölüşüblər. ATU-nun Apellyasiya Komissiyasının sədri, professor Eldar Qarayev komissiyanın aralıq qiymətləndirmə, sessiya imtahanları, yekun dövlət attestasiyası, rezidentura və digər imtahanlarda biliklərin qiymətləndirilməsi zamanı mübahisəli məsələlərin həlli ilə məşğul olduğunu deyib. Komissiyanın sədri aralıq imtahan, yekun imtahan və hazırlıqla əlaqədar cari ilin yaz semestrində 5500-ə qədər müraciətə baxıldığını, bəzi kafedralarda daha çox əsaslı apellyasiya şikayətlərinin müşahidə edildiyini və İmtahan Mərkəzi ilə birlikdə belə halların qarşısını vaxtında almağa çalışdıqlarını bildirib.

Tədris Departamentinin müdiri, dosent Kamandar Yaqubov yaz semestrinin yay imtahan sessiyasına dair məlumatları dinləyərkən yuxarı kurslarda nəticələrin yüksək olmasına diqqət çəkib və bunu kafedraların test bazasının yaradılmaması ilə əlaqələndirib. Tələbənin jurnalındakı nəticələrlə müəllimin jurnalındakı nəticələrin uyğunsuzluğuna da toxunan K.Yaqubov universitetdə yeni kafedraların yaradılmasından da söz açıb və 2023-2024-cü tədris ilində yeni yaradılmış iki ixtisas üzrə buraxılış imtahanlarının olacağını şura üzvlərinin nəzərinə çatdırıb.

Çıxışında tamamilə yeni olan ixtisaslar üzrə mütəxəssislərin tapılmaması səbəbindən yaranan çətinliklərdən danışan Fizioterapiya və tibbi reablitasiya kafedrasının müdiri, dosent Paşa Mehdiyev bildirib ki, bu boşluğu doldurmaq üçün qardaş Türkiyə Cümhuriyyətində təhsil almış kadrları dəvət edirik. Ancaq onların pedaqoji təcrübəsinin çox aşağı olması testlərin hazırlanmasında özünü göstərir. Tədris planının hazırlanmasında yol verilən bəzi qüsurlara, ədəbiyyat çatışmazlığına da toxunan kafedra müdiri, mövcud nöqsanların tezliklə aradan qaldırılmasına çalışacaqlarını söyləyib.

Allerqologiya və immunologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva isə şura üzvlərinin diqqətini universitetdən kənar bazalarda fəaliyyət göstərən kafedraların üzləşdikləri problemlərə yönəldib.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayan rektor, professor Gəray Gəraybəyli son dövrlərdə universitetimizə marağın xeyli artmasının məmnunluq hissi ilə yanaşı, həm də böyük məsuliyyət yaratdığını vurğulayıb. Bu il universitetimizə qəbul planında dövlət sifarişli yerlərin sayının artırıldığını və müxtəlif fakültələrdə əlavə edilən 120 yerin hamısının tutulduğunu diqqətə çatdıran rektor, bunu daha çox sayda tələbənin ödənişsiz oxumaq imkanı əldə etməsi kimi dəyərləndirib.

Rektorun sözlərinə görə, universitetimizdə ikinci ali təhsil almaq istəyənlərin də sayı çoxalıb: "Statistikaya nəzər yetirsək görərik ki, əvvəlki illərdə ikinci təhsil üçün maksimum 30 nəfər müraciət edərdi. Bu il isə müraciət edənlərin sayı 200-dən çoxdur. Onların qeydiyyatı Təhsil Nazirliyi tərəfindən aparılır. Nəinki universitetimizin, eləcə də digər universitetlərin məzunları, hətta hüquq ixtisasını bitirən şəxslər müraciət etmişdi. Ona görə də cənab nazirlə məsləhətləşərək yalnız tibb və əczaçılıq elmləri üzrə təhsili olanları fərqləndirdik və uyğun olan 52 nəfərdən cəmi 30 nəfəri müsabiqə yolu ilə ikinci ali təhsil üçün qəbul etdik".

Universitetimizdə təhsil almaq üçün 1000-dən çox xarici vətəndaşın müraciət etdiyini də söyləyən professor G.Gəraybəyli bildirib ki, bu marağın əsas səbəbi təhsil proqramlarımızın beynəlxalq akkreditasiyadan keçməsidir: "Xarici vətəndaşlardan 700 nəfərini qəbul etmək fikrimiz vardı. Ancaq çox təəssüf ki, kifayət qədər xarici dilli müəllimimiz olmadığına görə qəbul edə bilmədik. Ona görə də xarici dil bacarığı olan gənc kadrların bu prosesə cəlb edilməsi birinci dərəcəli məsələdir".

Tədrisin keyfiyyətinin, daxili nizam-intizam qaydalarının, dərsə davamiyyətin daim diqqət mərkəzində saxlanılmasının vacibliyindən danışan universitetin rəhbəri, kənar bazalarda narahatlıq doğuran problemlərə də aydınlıq gətirib.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə də baxılıb. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən göndərilən, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı tərəfindən hazırlanmış klinik protokollara yazılan rəylər, ATU-nun institusional akkreditasiyasının keçirilməsinə dair hesabat barədə şura üzvlərinə məlumat verilib. Eyni zamanda əməkdaşların xarici ölkələrə səfərlərinin elektron qeydiyyatı üçün tələb olunan ərizə forması və qaydalar, elmlər doktoru işlərinin mövzusu və elmi məsləhətçisi təsdiqlənib.

Sudeyf İmamverdiyevi Urologiya, Qalib Qarayevi İnsan anatomiyası və tibbi terminologiya, Tamara Hüseynovanı isə Ağız və üz-çənə cərrahiyyəsi (ikinci müddətə) kafedrasına məsləhətçi-professor vəzifəsinə seçən Elmi Şura sonda dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**



# Əməkdaşlarımızın elmi işləri yüksək impakt faktorlu jurnallarda

**ATU əməkdaşlarının elmi məqalələri dünyanın nüfuzlu tibb jurnalları və elmi toplularında vaxtaşırı nəşr olunur.**

Buna misal kimi, Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov və ETM-in Elektron mikroskopiya şöbəsinin baş elmi işçisi, dosent Fuad Rzayevin yay tətili dövründə universitetdə və digər müəssisələrlə birgə yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələrinin nüfuzlu və yüksək impakt faktorlu jurnallarda (Journal of Materials Chemistry B – impact factor 7; Ecotoxicology and Environmental Safety – impact factor 6.8; Biogerontology – impact factor 4.5; Journal of King Saud University – Science – impact factor 3.829; Biosystems Diversity (Web of Science); Egyptian Journal of Veterinary Sciences (Web of Science, Scopus) dərc edilməsini göstərə bilərik.

Məqalələr elmin müxtəlif sahələrini əhatə etməklə, ilk dəfə olaraq makroheterotsiklin maddəsinin sintezinə, onun maqnit nanohissəcikləri ilə nanostrukturlaşdırılmasına və alınan ansamblın bioloji aktivliyinin tədqiqinə; maqnetit xüsusiyyətə malik nanohissəciklərin aqvakultura şəraitində yetişdirilən çəki balıqlarına in vivo şəraitində təsir edilməklə balıqların bağırsaqlarında onların bioakkumulyasiyası, yaranan patomorfoloji dəyişikliklərin işıq və elektron mikroskopik tədqiqinə; erkək və dişi siçovullarda qocalığın beynin ultrastrukturuna diferensial təsirinə; Mangifera indica bitkisinin toxumlarının fitokimyəvi, antibakterial və antibiotəbəqə effektivliyinin müəyyən edilməsinə, parazit helmintlərin (Heterakis dispar) cinsiyyət orqanlarının ultrastrukturunun tədqiqinə; Paradilepis scolicina lentşəkilli qurda ZnO nanohissəciklərinin tətbiq edilməsi və onların antihelmint xüsusiyyətlərinin müəyyənləşdirilməsinə həsr olunub.

# Azərbaycanda cərrahiyyənin sürətli inkişafı son 30 ilə təsadüf edir

## Professor Elçin Ağayev: "Bu inkişafda qardaş Türkiyə alimlərinin böyük xidməti var"

**Sentyabrın üçüncü şənbə günü (bu il 16 sentyabr) Beynəlxalq Cərrahlar Günü kimi qeyd olunur. Travmatoloq, neyrocərrah, ginekoloq və digər mütəxəssislərin öz peşə bayramları olsa da, Beynəlxalq Cərrahlar Günü cərrahi fəaliyyət göstərən bütün tibb işçiləri üçün aktualdır.**

ATU-da cərrahi yönümlü kafedraların, ayrıca cərrahi klinikanın fəaliyyət göstərməsi bu sahəyə xüsusi diqqət yetirilməsinin göstəricisidir. Bu əlamətdar gün ərəfəsində ATU-nun Tədris Cərrahiyyə Klinikasının aparıcı mütəxəssisi, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev ölkəmizdə cərrahiyyənin inkişaf yolu haqqında fikirlərini bizimlə bölüşüb: "Azərbaycanda və türk dünyasında "loğmanlar" adlandırılan təbiblərin tarixi hətta eramızdan əvvəlki dövrə gedib çıxsa da, Azərbaycanda cərrahlığın inkişaf tarixi yazılı mənbələrə görə, XI əsrdən başlayır. Həmin dövrdə Ömər Osman oğlu Hafiyəddin Şamaxıda ilk tibb məktəbini - "Mədrəseyi Tibbi" açıb. XII-XIII əsrlərdə Atabəylərin hakimiyyəti dövründə təbabət, o cümlədən cərrahiyyə sahəsində Cəlaləddin Təbib, Fəxrəddin Əbu Abdulla ən Naxçıvani, Əkməliddin ən Naxçıvani kimi məşhur həkimlərimiz olub".

E.Ağayev sonrakı dövrlərdə Əbdül Kərim Mehmandarovun Peterburq Tibb Cərrahlıq Akademiyasında, Xudat bəy Rəfibəyovun Xarkov Universitetində, həmçinin B.Həsənbəyov, C.Lənbəranski, N.Nərimanov, M.İsrafilbəyov, S.Əfəndiyev, Q.Musabəyov, T.Şahbazi, M. Mirqasımov, M. Topçubaşov və başqalarının Rusiyanın müxtəlif şəhərlərində tibb təhsili aldığını xatırladıb. Amma ölkəmizdə elmi cərrahiyyənin 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasından sonra inkişaf etdiyini vurğulayaraq bildirib ki, bunun ən bariz nümunəsi 1919-cu ildə təsis edilən Bakı Dövlət Universitetində Tibb fakültəsinin açılması idi: "Burada təhsilə cəlb olunan milli kadrlarımızdan M.Mirqasımov, S.Kazımov, M.Topçubaşov, H.Talışinski,



İ.İsmayılzadə, M.Hacıqasımov, A.Qafarov, Z.Məmmədov, F.Əfəndiyev, T.Əmirov və digər tanınmış alimlərimizin adlarını çəkə bilərik. Onu da təəssüflə qeyd edim ki, Azərbaycan Demokratik Cümhuriyyətinin rus işğalçıları tərəfindən sovet bayrağı altında devrilməsi səbəbindən, tibb sahəsində də durğunluq yaranmışdı. Amma sonradan sovet təbəbətinin tərkib hissəsi olaraq Azərbaycanda cərrahiyyənin inkişaf etdirilməsi üçün müəyyən işlər görüldü. Bu inkişafda adı çəkilən və çəkilməyən, Azərbaycanda cərrahlıq məktəbi yaradan, həmçinin müasirlərimiz sayılan akademik B.Ağayev, A.Tahirov, B.Abasov, İ.Məmmədov, N.Rzayev, H.Sultanov, M.Nəsirov kimi görkəmli alimlərin müstəsna xidmətləri danılmazdır".

Bununla belə, Azərbaycanda cərrahiyyənin sürətli inkişaf dövrünün ikinci dəfə müstəqillik qazanmağımızdan sonrakı dövrə - son 30 ilə təsadüf etdiyini söyləyən professor, bu proseslərin bilavasitə iştirakçısı olduğunu diqqətə çatdırıb: "Mən özüm şahidəm ki, biz müstəqilliyimizi bərpa edənədək hətta mərkəzi klinikalarımız xoşagəlməz vəziyyətə düşmüşdü. Hələ də sovet nostaljisi ilə yaşayan bəzi insanlara o dövrdəki acınacaqlı durumu xatırlatmaq istərdim. Xüsusilə də keçmiş SSRİ-nin son dönəmlərində dünya, hətta qonşu Türkiyə, İran dövlətlərinin cərrahiyyəsi ilə müqayisədə cərrahiyyəmiz özünün tənəzzül dövrünü yaşayırdı. Adi tibbi alətlər, qurğular, tibb ləvazimatlarının çox böyük çatışmazlığı hər addımbaşı hiss olunurdu. Yadımdadır, I Qarabağ savaşında və 20 Yanvar hadisələrində M.Nağıyev adına Təcili və Təxirəsalınmaz Tibbi Yardım Klinik Xəstəxanasına çoxsaylı yaralılar gətirilirdi. Yaralı qazilərin müalicəsində böyük çətinliklər çəkirdik. Lazimi dərman preparatları, antibiotiklər, ağrıkəsicilər, qazlı qanqrena əleyhinə zərdab, sarğı materialları çatışmırdı. 10-15 həkim bir otaqda otururduq, əməliyyatxanaları qızdırıcı sobalarla isitməyə çalışırdıq".

E.Ağayevin sözlərinə görə, ölkəmiz yenidən müstəqil olduqdan sonra cərrahiyyəmiz də sürətli inkişaf yoluna qədəm qoyub: "Bu inkişafda qardaş Türkiyə Cümhuriyyətində tibbi təhsil almağa göndərilən gənc kadrlarımızın da rolu böyükdür. Onların geri dönüşü sayəsində endoskopik, laporoskopik, azinvaziv cərrahiyyə, endovaskulyar damar, açıq və qapalı ürək əməliyyatları respublikamızda uğurla icra olundu. Biz bütün bunlara görə türkiyəli alimlərimizə, cərrahlarımıza borcluyuq. Azərbaycanda kadrların təmənnasız yetişdirilməsində onların çox böyük xidmətləri var. Məsələn, o vaxtadək ölkəmizdə açıq ürək əməliyyatı edə bilən 1-2 nəfər vardı. Həmin əməliyyatlar isə arzuladığımız beynəlxalq standartlara cavab verən səviyyədə deyildi. Ancaq indi açıq ürək, damar əməliyyatları da daxil, ən mürəkkəb əməliyyatları yüksək peşəkarlıqla həyata keçirən kadrlarımız kifayət qədərdir".

Professor E.Ağayev həm Bakı şəhərində, həm də regionlarda möhtəşəm diaqnostika və müalicə mərkəzlərinin, o cümlədən ATU-nun nəzdində 4 klinikanın yaradılmasının əhəmiyyətindən də danışıb. O özünün də çalışdığı Tədris Cərrahiyyə Klinikasında hər gün onlarla insan həyatını xilas edərək üzərinə düşən məsuliyyətli missiyanı layiqincə yerinə yetirən həmkarlarını, ümumilikdə Azərbaycan cərrahlarını peşə bayramları münasibətilə təbrik edib, onlara cansağlığı və uğurlar arzulayıb.

# Ənənəvi seminarlar yeni tədris ilində də davam edir

## Rezidentlər üçün tibbin ən müasir sahələrini əhatə edən mövzular müzakirəyə çıxarılır

**Sentyabrın 21-də ATU-nun Tədris Terapevtik Klinikasında rezidentlər üçün seminar təşkil edilib. Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov tədbir iştirakçılarını salamlayaraq, ənənəvi seminarların yeni tədris ilində də davam etdiriləcəyini bildirib.**

Seminarların rezidentlər üçün faydalı olduğunu vurğulayan N.Xəlilov qeyd edib ki, onların elmi fəaliyyəti universitet rəhbərliyinin diqqət mərkəzindədir. Əlavə edib ki, indiyədək keçirilən bütün seminarlar tibbin ən müasir sahələrini əhatə edib və onların tibb elmini daha dərindən mənimsəməsi üçün bu çox əhəmiyyətlidir. N.Xəlilov müzakirəyə təqdim edilən bu dəfəki məruzənin də rezidentlər üçün maraqlı olacağını söyləyib.

Sonra Revmatologiya şöbəsinin IV kurs rezidenti Nuranə Sadıqlı "Uşaqlarda sümük-əzələ ağrılarının qeyri-iltihabi səbəbləri" barədə məlumat verib. Məruzəçi çıxışında bildirib ki, sümük-əzələ ağrıları uşaq revmatoloji poliklinikalarına müraciətlərin əsas səbəblərindən biridir. Uşaqların təxminən yarısı inkişaf dövründə ən azı bir dəfə xroniki əzələ-skelet ağrısını yaşayır. Uşaq poliklinikalarına müraciətlərin 10%-ni dayaq-hərəkət ağrıları şikayətləri təşkil edir: "Misal üçün, reaktiv artrit əsasən 3-8 yaş arası qrip və yuxarı tənəffüs yollarında infeksiyalar zamanı baş verir. Septiki artrit təcili diaqnostika edilməli və müalicə



olunmalıdır. Adətən tək oynağı əhatə edir, yüksək qızdırma, ağrı, hərəkət məhdudluğu zamanla daha da artır".

Onun sözlərinə görə, gecə ağrıları, əsasən böyümə ağrıları adlanır və saatlarla davam edərək çox vaxt öz-özünə keçib gedir. Bəzən masaj və ağrıkəsicilər də fayda verə bilər: "İdmanla məşğul olan kiçik yaşlı uşaqlarda əl və ayaq sümüklərində stress (yorulma) ağrılarına rast gəlmək mümkündür. Bud sümüklərində epifiz sürüşməsi, əsasən çəkisi artıq olan 10-12 yaşlı uşaqlarda baş verir. Ani başlayan axsama, dizə yayılan ağrı, yeriyərkən ayağı bayıra basma şəklində özünü büruzə verir. Kiçik yaşlı uşaqlarda revmatizm ağrıları, adətən bir deyil, bir neçə oynaqda şikayətlərlə özünü göstərir. Buna 2 yaş ətrafı uşaqlarda daha çox rast gəlinir. Topuqda və dizlərdə azacıq şişkinlik və istiliyin artması ilə müşahidə olunur və axsamaya səbəb olur. Xoş və bədxassəli sümük şişləri səbəbindən ortaya çıxan ağrılar da var. Əgər şikayətlər istirahət və ağrıkəsicilərlə keçməzsə, mütləq həkimə müraciət etmək lazımdır".

Daha sonra müzakirəyə çıxarılan mövzu ətrafında verilən suallar məruzəçi tərəfindən cavablandırılıb.

Tədbirin sonunda Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva rezidentləri klinikanın daxili nizam-intizam qaydaları ilə tanış edib, həmçinin buradakı iş rejimi və mövcud şərait barədə məlumatlandırıb, onları klinikanın imkanlarından maksimum dərəcədə faydalanmağa çağırıb.

Seminarın işində Rezidentura və magistratura şöbəsinin Tədris Terapevtik Klinika üzrə koordinatoru Arzu Bağırova, eləcə də həkim- terapevtlər və bu sahə üzrə təhsil alan rezidentlər iştirak edirdilər.



# Rezidentlərlə növbəti görüş urologiya mövzusunda olub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında tələbə-rezidentlər üçün növbəti ənənəvi seminar təşkil olunub.**

Seminarı Rezidentura və magistratura şöbəsinin müdir müavini, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov açıb. O, mövzunun aktuallığını vurğulayaraq bildirib ki, "Böyrək və sidik kisəsi törəmələri" ilə bağlı Urologiya kafedrasının müdiri, professor Rauf Nağıyev çıxış edəcək.

Professor R.Nağıyev törəmələrin epidemiologiyası, etiologiyası, patologiyası, müayinəsi, müalicə yolları və s. ilə bağlı seminar iştirakçılarına ətraflı məlumat verib. Eləcə də öz təcrübəsini rezidentlərlə bölüşüb.

Seminar işgüzar şəraitdə başa çatıb və verilən suallar professor tərəfindən əhatəli şəkildə cavablandırılıb.

# “Xəstələr ağciyər xərçəngindən çox, vərəmdən qorxur...”

## Dosent Rafiq Bayramov: Cəmiyyətdə bu xəstəliyə münasibət dəyişməlidir



**Dünyada, eləcə də Azərbaycanda vərəmlə bağlı məsələ həmişə aktual olub. Burada əsas məsələlərdən biri insanların vərəmdən qorxması, cəmiyyətdən təcrid olmaq riskini hiss edib bu xəstəliyi gizlətmələri və vaxtında müalicə almamalarıdır.**

Bu sahədə mövcud vəziyyət və problemlərlə bağlı “BakuPost” saytının suallarını ATU-nun Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov cavablandırıb.

**- Vərəmli xəstələrin müayinə və müalicəsində ən çox rastlaşdığınız problemlər hansılardır? Xəstələr niyə vərəmdən bu qədər qorxur?**

- Əsas problem bu sahə üzrə yetərincə məlumatın olmaması, lazımi qədər maarifləndirmə işlərinin görülməməsidir. Dəfələrlə şahidi olmuşam, xəstə deyir, “doktor, de ki, ağciyərində xərçəng var, öləcəksən, amma demə ki, vərəmsən”. Çünki onu qorxudan xəstəlik yox, münasibətdir. Ən yaxın adamlarının belə ona qarşı münasibətinin dəyişəcəyindən ehtiyat edir. Yəni bu fobiya, bu stiqma, çox təəssüflər olsun ki, cəmiyyətimizdə hələ da mövcuddur. Əslində, təkcə bizdə deyil, əksər ölkələrdə belədir.

Vərəmə hər kəs yoluxub xəstələnə bilər. Çox yaxşı bir deyim var, “vərəm elə xəstəlikdir ki, öz vizit kartını əvvəlcədən heç kimə göndərmir”.

Düzdür, yoluxduğu halda xəstələnmə ehtimalı çox olan insanlar var. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi rəsmi rəqəmlərdə dünya əhalisinin 3-də birindən çoxunun vərəm mikobakteriyaları ilə yoluxduğu deyilir. Vərəmə görə epidemoloji vəziyyət qeyri-qənaətbəxş olan ölkələrdə bu göstəricilər daha yüksəkdir.

İctimai yerdə olan hər bir kəs yoluxa bilər, amma yoluxanların hamısı xəstələnmir. İlkin yoluxanlar arasında xəstələnmə çox olur. Bu da ilk yoluxanların 10%-ə qədərini təşkil edir. Qalanı bədəndə, xüsusən limfa düyünlərində persistə etmiş şəkildə, sadə dildə desək, “yatmış vəziyyətdə” qala bilir.

Əgər hər kəs xəstələnə bilərsə, niyə bu xəstəlik hamıda xof yaradır? Koronavirus pandemiyası dönəmində ilk vaxtlarda insanlar koronavirusa yoluxduğunu gizlətməkdən ötrü analiz verməkdən belə çəkinirdilər. Hətta test nəticələri pozitiv çıxsa da gizlədirdilər. Sonradan yoluxma o qədər kütləviləşdi ki, hamı üçün adiləşdi. İnsanlar qəbul etdi ki, buna hamı yoluxa bilər. Yəni bu hansısa bir pis vərdişdən, pis həyat tərzindən yaranmır. Vərəmə də münasibət belə olmalıdır.

**- Amma yenə də vərəm heç kim üçün adiləşmir...**

- Cəmiyyətdə bu xəstəlik haqqında yetərli məlumatın olmaması ciddi problem yaradır. Vərəmin yaşı bəşəriyyətdə canlıların yaşı ilə eynidir.

I Dünya müharibəsində döyüşdə ölən insan sayından daha çox, həmin müddətdə Rusiyada vərəm xəstəliyindən ölənlər olub. Son illərdə bütün dünyada, o cümlədən Azərbaycanda da vərəmin epidemioloji göstəricilərində müsbətə doğru dinamik tendensiya var idi. Amma koronovirus pandemiyası insanların həyatını, dünyanın düzənini dəyişdiyi kimi, vərəmə görə epidemioloji göstəricilərin də dəyişməsinə səbəb oldu.

2020-ci ildən öncəki 10 il ərzində dünyada vərəmdən ölənlərin illik sayı 10 milyonu keçmədiyi halda, 2020-ci ildən sonra bu rəqəm hər il demək olar ki, 100 min artmaqla artmaqda davam edir.

Digər tərəfdən, dərmanlara rezistent vərəmlə mübarizə tədbirlərinə daha adekvat yanaşılmasa, dünyada yoluxanların və ölənlərin sayında ciddi artım olması gözlənilir. Rezistenlik o deməkdir ki, vərəm əleyhinə dərmanların təsir eləmədiyi, yəni, müalicədə həmin dərmanların effektsiz olduğu hal formalaşır. Xüsusən də birincili rezistentlik hallarının artması daha təhlükəlidir.

**- Bu məsələ ilə bağlı insanlara nə məsləhət görərdiniz?**

- Vərəm xəstələri nə qədər erkən mərhələdə aşkar olunub müalicəyə başlanılarsa, bir o qədər effektli olar, həmin xəstənin ətrafdakı insanlar üçün təhlükəliliyi aradan qalxar. Müalicə uzunmüddətli (ən azı 6 ay), kompleks və tam aparılmalıdır.

Cəmiyyət vərəm xəstəliyi haqqında nə qədər çox məlumatlı olsa, insanlar öz sağlamlıqlarına o qədər ciddi yanaşarlar, şübhələri olduqda vaxtında həkimə müraciət edərlər, aşkar olduqda da düzgün müalicə olunub, tam sağalarlar. Çünki vərəm sağalan xəstəlikdir. Hətta elə xəstələrim var ki, onların nə zamansa xəstələnməyinin heç bir izi qalmayıb.

Mütəxəssislərin xəstəlik haqqında məlumatları ilə yanaşı, bu xəstəliyə tutulmuş, müalicə alib sağalmış, müalicəsi davam edən xəstələrin fikirlərini də cəmiyyətimizə çatdırmaq lazımdır. İnsanlar müalicə alıb normal həyata dönən real pasiyentləri görsələr, bu xəstəlikdən qorxmazlar, onu gizlətməyə çalışmazlar.

**Dünya yeni bir eranın astanasındadır. Qədim türk mədəniyyəti tarix boyu dünyanın geosiyasi xəritəsində əhəmiyyətli rol oynayıb. Bu gün türk dövlətləri beynəlxalq münasibətlər sisteminin mühüm bir hissəsi olmaqda və dünya siyasətinə öz təsir gücünü göstərməkdədir.**




## Əməkdaşımızın məqaləsi türk dünyasından bəhs edən kitabda yer alıb

Bu məqsədlə də 2023-cü ildə türk dünyasının mənəvi paytaxtı olan Qazaxıstanın Türküstan şəhərində keçirilməsi nəzərdə tutulan Türk Dövlətləri Təşkilatının 10-cu Zirvə Görüşü ərəfəsində “Politics, Ekonomics, Cultural Collaborations and 2040 Vision” (Siyasi, iqtisadi, mədəni əməkdaşlıq və 2040-a baxış) adlı kitab nəfis tərtibatla ingilis dilində nəşr olunub. 595 səhifəlik kitabda ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyevin “Türk dövlətlərinin təşkili Heydər Əliyevin baxışları prizmasından” başlıqlı məqaləsi də yer alıb.

Məqalədə Ulu Öndərin nəsillərə örnək olan həyat yolu, Azərbaycan dövlətinin dünyada öz layiqli yerini tutması istiqamətində göstərdiyi siyasi fəaliyyət barədə geniş məlumat verilib. Müəllif vurğulayır ki, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanması, eləcə də demokratik dövlət konsepsiyasının uğurla həyata keçirilməsi Heydər Əliyev şəxsiyyətinin və onun siyasi kursunun bütün istiqamətlərdə dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və inkişafına xidmət edir. Bundan başqa, məqalədə Ulu Öndərin tövsiyələrindən də sitat gətirilir: “Biz çox istəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu, bizim tariximizdir, bizim mədəniyyətimizdir, bizim köklərimizdir. Eyni zamanda, bu, bugünkü vəziyyətin reallıqlarıdır”.

Professor Q.Əliyev qeyd edir ki, türkdilli dövlətlər və onların xalqlarının birliyi, əməkdaşlığı istiqamətində işlər bu gün ölkə Prezidenti İlham Əliyev və müstəqil türk dövlətlərinin rəhbərləri tərəfindən uğurla davam etdirilir.

# “Duzsuz” ol, sağlam yaşa

## Cəfər Nəsirli: Vaxtında aşkarlanarsa, artroz və osteoporoz əməliyyatsız aradan qaldırılır

**Xalq arasında “duzlaşma” deyilən artroz, eləcə də osteoparoz xəstəliklərindən əziyyət çəkənlərin sayı get-gedə çoxalmaqdadır. Bəs, onların yaranmasına səbəb olan amillər nədir və burada yaş faktoru da rol oynayırmı?**

Suallarımıza aydınlıq gətirən ATU-nun Travmatologiya və ortopediya kafedrasının müdiri, dosent Cəfər Nəsirli bildirib ki, artrozun yaranma səbəbləri olduqca müxtəlifdir: “Burada əsas məsələ oynaqların qığırdaq qisminin yeyilməsi və oynaqların öz funksiyalarını itirməsidir. Bu həm hərəkət məhdudiyyəti, həm də ağrılarla müşayiət olunur. Onun yaranmasının ən aktual səbəblərindən birincisi qida qəbulu ilə bağlıdır. Müasir dövrümüzdə insanlar o qədər geni modifikasiya olunmuş, hormonlu qidalar qəbul edir ki, bu da sürətli şəkildə qığırdağın yeyilməsinə, eyni zamanda metabolizmin pozulmasına gətirib çıxarır. Düzgün qida rejiminin olmaması, artıq çəki, oynaqlara düşən ağır yük nəticədə artroza, osteoparoza səbəb olur. Bunlar, həmçinin bir sıra oynaq xəstəlikləri - revmatizm, revmatoid artritin müxtəlif növləri, hormonal pozğunluqlar yarada bilər. Bəzən vaxtında həkimə müraciət etmək və müalicə olunmaq əvəzinə, xəstələr özləri müxtəlif ağrıkəsicilərdən istifadə etdikdə, artroz ortaya çıxır”.

Həkim deyir ki, travmatik artrozlara da rast gəlinir: “Hər hansı bir zərbə, avtomobil və ya məişət qəzalarında alınan travmalar, o cümlədən yüksəklikdən düşmə nəticəsində oynaqlarda çıxıq və sınıqlar yaranır ki, bunlar da sonradan həmin xəstəliklərə gətirir. Əgər prosesin qarşısı alınmasa, oynaq səthinə düşən təzyiq artır, deformasiyaya uğrayır və kənarlarında sümük çıxıntıları (osteofitlər) inkişaf edir. Artroz xəstəliyi zamanı ən çox fəqərələr, bud-çanaq, diz oynaqları və digər kiçik oynaqlar zədələnə bilir. Hərəkət vaxtı oynaqlarda ağrılar meydana çıxır, günün axırında və soyuq havada şiddətlənir”.



Mütəxəssisin sözlərinə görə, əvvəllər artroza daha çox yaşlı insanlarda rast gəlinirdisə, indi bu xəstəlik də getdikcə cavanlaşır: “İndi bəzən 35-40 yaşlı insanlar da bu xəstəlikdən əziyyət çəkir. Eləcə də yeni doğulmuş körpələrdə anadangəlmə çıxıqlar ola bilir. İnkişaf etmiş ölkələrdə hər doğulan körpə ortopedik və travmatoloq tərəfindən müayinə olunur. Əgər belə bir problem varsa, çox sadə üsullarla körpənin oynağı yerinə qoyulur və hər hansı bir anatomik pozğunluq meydana gəlmir. Amma bizdə təəssüf ki, adətən xəstəlik ağırlaşdıqdan sonra ortoped-travmatoloqa müraciət edirlər. Bəzən oynağın yerinə gec qoyulması da artroza səbəb olur”.

Müalicə prosesindən danışan travmatoloq vurğulayıb ki, ilk növbədə səbəbləri aradan qaldırmaq lazımdır: “Yeni başlamış artrozlarda səbəblər erkən müəyyən edilib aradan qaldırılarsa, çox gözəl nəticələr əldə olunur. Xəstəliyin qarşısı müalicə ilə alınır və əməliyyata ehtiyac qalmır. Son illərdə artrozun müalicəsində PRP üsulundan istifadə edirik. Xəstənin öz qanından trombosit kütləsi çox olan kök hüceyrəsi əldə edilərək, oynaqlarına yeridilir. Kobudlaşmış artrozlarda isə cərrahi üsuldan istifadə olunur. Sıradan çıxmış oynaq implantla əvəzlənir və xəstə ağrısız, hərəkətləri normal şəkildə həyatına davam edir.

Onu da qeyd edim ki, artroz əməliyyatları hər yerdə həyata keçirilmir. Çünki bu, kifayət qədər ciddi əməliyyatdır. Bunun üçün ilk öncə yaxşı şərait, daha sonra isə güclü mütəxəssis tələb olunur. Süni oynaq üçün istifadə edilən implant da çox önəmlidir. Eləcə də əməliyyatdan sonra xəstənin reabilitasiyası vacib əhəmiyyət daşıyır”.

Cəfər Nəsirli söhbət əsnasında onu da əlavə edib ki, ATU-nun Tədris Cərrahiyyə Klinikasının Travmatologiya və ortopediya şöbəsində bu sahəyə aid hər növ əməliyyatı yüksək səviyyədə icra edən peşəkarlardan ibarət həkim briqadası var. Bütün əməliyyatlar müasir texnologiya əsasında həyata keçirilir. Burada, həmçinin ortopediyanın ən mürəkkəb əməliyyatlarından sayılan skolioz da yüksək səviyyədə icra edilir.

**M.ƏLƏKBƏRLİ**

**Vətənimiz Azərbaycanın azadlığı uğrunda ötən əsrin sonlarında başlayan mübarizə xalqımıza asanlıqla başa gəlmədi. Bir tərəfdən, haqq səsini ucaldan əliyalın xalqımıza qarşı sovet qoşunlarının törətdiyi 20 Yanvar qırğını, digər tərəfdən də ermənilərin torpaqlarımıza göz dikməsi, işğal zamanı törədilən amansız qətliamlar, Xocalı faciəsi, mülki insanlara və eləcə də əsirlərə verilən ağlasığmaz işgəncələr – bunların hamısı xalqımızın tarixində qara səhifələrdir.**

Şəhid məzunlarımız

# Ömür yolu ATU-dan keçən Vətən şəhidləri

## Azərbaycan Tibb Universitetinin 20 Yanvar faciəsi və I Qarabağ müharibəsində həlak olan tələbə və məzunları

Amma son nəticədə Azərbaycanın müstəqilliyi xalqımızın sarsılmaz iradəsi ilə bərpa olundu. O ağrı-acılı mübarizə prosesində Azərbaycan Tibb Universitetinin istər əməkdaşları, istərsə də tələbə və məzunları böyük fədakarlıqlar göstərdilər. Onlar gecə-gündüz bilmədən yaralıları müalicə edib həyata qaytardılar, lazım olanda isə döyüş meydanına atıldılar. Həm vətəndaş, həm də peşə borclarını layiqincə yerinə yetirən tələbə və məzunlarımızdan 20 Yanvar hadisələri və I Qarabağ müharibəsi zamanı şəhidlik zirvəsinə ucalanlar da oldu. Onları bir daha yada salaq.

### 20 Yanvar gecəsi dostlarını tək buraxmayıb



**İmanov Elçin Beydulla oğlu**

1967-ci il avqustun 12-də Bakıda anadan olub. 1974-cü ildə Əli Bayramlı (indiki Şirvan) şəhər 10 nömrəli orta məktəbin 1-ci sinfinə gedib. 1984-cü ildə orta məktəbi bitirərək N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Stomatologiya fakültəsinə daxil olub.

20 Yanvar faciəsi zamanı Elçin 4-cü kursda oxuyurdu. Yanvarın 19-u şənbə olduğundan, rayona valideynləri ilə görüşə gedəsi imiş. Amma ölkədə vəziyyət gərgin olduğundan Elçin dostlarını tək buraxmır. Yanvarın 19-dan 20-nə keçən gecə tələbə yoldaşları ilə birgə leytenant Şmidt adına zavodun mədəniyyət evinin qarşısına toplaşıblar. Əsgərlər dinc əhaliyə qəflətən atəş açanda Elçin də yaralanıb. Bu zaman qardaşı Fuad da onun yanında olub. Qardaşı və yoldaşları onu 4 saylı xəstəxanaya aparıblar. Amma Elçini cərrahiyyə stoluna çatdırmaq mümkün olmayıb, yolda dünyasını dəyişib. E.İmanov Salyanda dəfn edilib.

Salyanda yaşadığı küçə və təhsil aldığı Şirvan şəhər 10 saylı orta məktəb onun adını daşıyır. Salyan Tarix-diyarşünaslıq muzeyində onun şərəfinə "Elçin" guşəsi təşkil olunub. 1996-cı il yanvarın 16-da Tibb Universitetinin əsas korpusunun qarşısında "Şəhidlər bulağı" kompleksi inşa edilib, Elçinin də xatirəsi əbədiləşdirilib.

Qəhrəman tələbəmizin qısa və şərəfli ömür yolu yazıçı və şairlərimizin də diqqətini çəkib. Onun haqqında Rafiq Səməndər "Şəhidlər" kitabında məlumat dərc edib, şair Oktay Rza "Elçin türbəsi", Ağacavad Əlizadə "Mənim əvəzimə", Malik Qədimov "Ağı – bayatılar" adlı şeirlərini onun xatirəsinə həsr edib.

### Aldığı biletlə son səfərinə çıxıb



**Alməmmədov Teymur Yəhya oğlu**

1972-ci il oktyabrın 20-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Keçili kəndində anadan olub.

1989-cu ildə orta məktəbi bitirən Teymur elə həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olub. Teymur şəhid olanda 1-ci kursda oxuyurdu.

Birinci imtahan sessiyasını uğurla başa vurduqdan sonra doğma kəndi Keçiliyə getmək istəyir. Bunun üçün 1990-cı il yanvarın 23-də indiki 28 May yaxınlığında yerləşən Aerokassadan Naxçıvana bilet alır. İki dostu və yerlisi ilə söhbət edə-edə geri qayıdarkən rus əsgərləri onlara atəş açır, Teymur başından ağır güllə yarası alır. Onu 4 nömrəli klinik xəstəxanasına gətirirlər. Həkimlər nə qədər səy göstərsə də, Teymuru həyata qaytarmaq mümkün olmur, yanvarın 31-i xəstəxanada dünyasını dəyişir.

Teymuru Şahbuz rayonunun Keçili kənd qəbiristanlığında torpağa tapşırıblar.

### Qarabağda döyüşdüyünü doğmalarından gizlədib



**Babayev Pərviz Rasim oğlu**

1972-ci il sentyabrın 9-da Zərdab rayonunun Körpükənd kəndində anadan olub, amma Ağdaşda yaşayıb. 1979-1989-cu illərdə Ağdaş şəhər 7 saylı tam orta məktəbdə təhsil alıb. Orta məktəbdə müəllim və şagirdlərin sevimlisi olub. Arzusu həkimlik olduğundan 1989-cu ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Pediatriya fakültəsinə daxil olub. İnstitutda da fəallığı ilə seçilib. Fakültə Həmkarlar Təşkilatının sədri, 480-ci qrupun rəhbəri olub. O, ali təhsil almaqla yanaşı, təcili yardım məntəqəsində də çalışıb.

1992-ci ildə tələbəykən könüllü olaraq Şuşa şəhərinə gedib. Çoxsaylı yaralılara tibbi yardım göstərib, onları müalicə edib. Narahat olmasınlar deyə, Qarabağda olduğunu valideynlərinə bildirməyib. Təhsilini davam etdirən Pərviz 1993-cü ilin aprelində yenidən döyüş bölgəsinə, Tərtər rayonuna yollanıb. Mayın 2-də əsgərlərlə birlikdə yaralıları cəbhə xəttindən xəstəxanaya gətirmək üçün ön xəttə gedib. Əsgərlərin yardımına gedən Pərviz özü Ağdərə uğrunda gedən döyüşlər zamanı şəhid olub.

Məzarı Ağdaş rayon Şəhidlər Xiyabanındadır. Təhsil aldığı 7 saylı Ağdaş şəhər tam orta məktəbi onun adını daşıyır.

### Düşmənin xislətini yaxşı bilirdi



**Alıyev Hafiz İbrahim oğlu**

1971-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Çəmbərək rayonunun Ağbulaq kəndində müəllim ailəsində anadan olub. 1988-ci ildə məlum hadisələrlə əlaqədar Qərbi Azərbaycandan ailəsi ilə birgə ermənilər tərəfindən deportasiya olunub və Goranboyun Muzdurlar kəndində məskunlaşıblar. H.Alıyev 1989-cu ildə adıçəkilən kənddə orta məktəbi bitirib. Elə həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olub.

Erməni xislətinə yaxından bələd olan Hafiz yaxşı bilirdi ki, onların burunlarını döyüş meydanında ovmasan, fikirlərindən əl çəkməyəcəklər. Bu səbəbdən də döyüşlərə qatılıb və düşmən tərəfini xeyli itkiyə məruz qoyub. Goranboyda gedən ağır döyüşlərin birində şəhid olub.

### Böyük arzuları yarımçıq qaldı



**İsmayılov Sərxan Dayandur oğlu**

1970-ci ildə Şuşa şəhərində müəllim ailəsində anadan olub. 1988-ci ildə Şuşada yerləşən 72 saylı Texniki Peşə Məktəbini fərqlənmə diplomu ilə bitirib. Elə həmin il Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub.

1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması zamanı həyatını itirib. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü həlak olmuşdu.

Beləcə, Sərxanın ömrü kimi, böyük arzuları da 22 yaşında yarımçıq qaldı.

### Şuşa işğal olunan gün itkin düşüb



**Hüseynov Ağası Rauf oğlu**

1968-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Bakı şəhər 62 saylı orta məktəbi bitirdikdən sonra 1985-ci ildə Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub.

1992-ci ilin aprelində "Qarabağ" könüllü müdafiə dəstəsinə yazılıb. Düşmənlə döyüşlərdə şücaətlər göstərib, Şuşa şəhərində gedən döyüşlərdə iştirak edib.

Şuşa işğal olunan gün - 8 may 1992-ci ildə şəhər ətrafında gedən döyüşlər zamanı itkin düşüb.

### Qarabağ mövzusu ən ağrılı yeri idi



**Məmmədov İlqar Qabil oğlu**

1974-cü ildə Bakının Biləcəri qəsəbəsində fəhlə ailəsində anadan olub. 1991-ci ildə 3 saylı Dəmiryol Orta Məktəbini gümüş medalla bitirib.

1991-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. Oxuduğu müddətdə fəallığı ilə seçilib. Qarabağ mövzusu onun ən ağrılı, yaralı yeri olub.

Ermənilərin əsassız iddiaları ilə heç cür barışmayan İlqar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə qatılıb. 1992-ci ildə döyüşlərin birində şəhid olub.

### Göyçəni yağı tapdağında görmək istəmirdi



**Yusibov Ehtiraf Hidayət oğlu**

1967-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olub. 1984-cü ildə Nərimanlı kənd orta məktəbini bitirib. 1985-ci ildə Azərbaycan Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olub.

1992-ci ildə institutu bitirərək, könüllü şəkildə Qarabağda gedən döyüşlərə qatılıb. Arzusu Qarabağı düşmənlərdən azad etdikdən sonra Göyçəyə qayıtmaq idi. O doğma kəndinin və mahalının yağı tapdağında olmasını qəbul etmirdi. Amma arzusuna çata bilmədi. Sovet imperiyasının dəstəyi ilə ermənilər Qarabağı işğal etdilər. Ehtiraf isə döyüş tapşırığını yerinə yetirdiyi zaman qəhrəmancasına şəhid oldu.

### Vətən uğrunda könüllü şəhid



**Abdullayev Natiq Yaqub oğlu**

1966-cı ildə Tərtər rayonunun Cəmilli kəndində kolxozçu ailəsində anadan olub. 1983-cü ildə Cəmilli kənd orta məktəbini fərqlənmə ilə bitirib. 1984-1986-cı illərdə sovet ordusunda hərbi xidmətdə olub.

Sonra isə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub. 1992-ci ildə institutu bitirərək könüllü cəbhə bölgəsinə gedib. 1993-cü ildə qəhrəmancasına şəhid olub.

O qaranlıq, qarışıq və ağrı-acılı 90-cı illər çoxdan arxada qalıb. Azərbaycan dövləti öz gücünü birə-min artıraraq, 2020-ci ilin Vətən müharibəsində tarixi ədaləti bərpa etdi, bütün dünyaya kimin kim olduğunu döyüş meydanında göstərdi. Artıq 3 ildir ki, bütün şəhidlərimizin ruhu şad, Azərbaycan vətəndaşının başı dikdir!

Vətənimizin dünəni, bu günü və sabahları olan bütün şəhidlərimizə Allah rəhmət eləsin!

**Qabil ZİMİSTANOĞLU**

# Payızın “uşaq xəstəlikləri”

## Həkim deyir ki, düzgün qidalanma və yuxu rejiminə əməl olunması vacibdir

**ATU-nun II Uşaq xəstəlikləri kafedrasının assistenti, Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin müdiri Qoşqar İsmayılovla uşaqlarda rast gəlinən xəstəliklərlə bağlı danışdıq.**



O, son bir ayda uşaqlar arasında ishal, qarın ağrısı və qusma, bəzən hərarətin artması ilə müşahidə edilən xəstəliklərin yayıldığını bildirdi: “Bunlar Adeno-Rota viruslarıdır. Avqustun sonlarından başlayaraq uşaqlar arasında limfa, xüsusən boyun limfa düyünlərinin böyüməsi ilə gedən viral infeksiyaları da artıb. Bu infeksiyalar əsasən sitomeqalovirus, hətta bakterial mənşəli limfa düyünlərinin böyüməsi, angina və ya kəskin tonzillit şəklində özünü göstərir. Belə uşaqların bir qismində hərarət 38-dən yuxarı olur”.

Artıq həm ali, həm də orta məktəblərdə yeni dərs ilinin başlaması ilə əlaqədar insanların Bakıya axınının çoxalacağını deyən həkim qeyd edib ki, payızın gəlişi dövründə uşaq və yeniyetmələrdə ən çox yuxarı tənəffüs yollarının xəstəliklərinə rast gəlinir: “Əvvəldən allergiyası, bronxial astması olan uşaqlarda bu problem daha da kəskin şəkildə özünü büruzə verir. Belə uşaqların valideynləri sentyabrın əvvəlindən pediatrla əlaqə saxlamalıdırlar. Çünki gec müraciət etdikdə problemlərin qarşısını almaq bir qədər çətinləşir. Yuxarı tənəffüs yollarının xəstəlikləri rinit dediyimiz burunaxma ilə başlayır, sonra öskürəyə keçir, kəskin traxeit və bronxitə, daha aşağıya doğru ağciyərlərə yoluxarsa, pnevmoniyaya gətirib çıxarır. Belə hallarda da yüksək hərarət, öskürək, burunaxma, halsızlıq, təngnəfəslik və s. olur”.

Q.İsmayılov bütün bunlar olmasın deyə, uşaqların ilk növbədə düzgün qidalanmasını, yuxu rejiminə əməl etməsini, eyni zamanda vitamin qəbulunu vacib hesab edir. Onun sözlərinə görə, hansısa vitamin, mineral əskikliyi varsa, həkim tərəfindən yoxlanılır, ya dərman, ya da təbii yollarla aradan qaldırılır. Belə ki, bütün meyvələr vitaminlərlə zəngindir. Vitaminli meyvələrlə düzgün qidalanan uşaqların xəstələnmə ehtimalı da aşağıdır. Amma iştahasız, “yemək kaprizi” olan uşaqlarda vitamin əskikliyi ilə bağlı immun sistemi zəifləyir və nəticədə həmin uşaqlarda yuxarı və aşağı tənəffüs yollarının xəstəlikləri daha çox özünü göstərir.

Qarşıdan gələn aylarda ən çox qrip və paraqrip viruslarının törətdiyi xəstəliklərin artma riskindən danışan həkim-pediatr vurğulayıb ki, əslində biz uşağın öskürməsini gözləməməliyik. Xüsusən də allergiyaya meyilli uşaqlarda artıq burunaxma, tez-tez asqırma əlamətləri başlayıbsa, hətta yüngül hərarət varsa, mütləq həkimə müraciət edilməlidir.

Müsahibimiz bəzən ev şəraitində yanlış metodlardan, həmçinin antibiotiklərdən özbaşına istifadənin ağırlaşmalara gətirib çıxardığını xatırladıb və valideynləri həkim nəzarətindən kənar “müalicə üsulları”ndan çəkinməyə çağırıb.

# Süd vəzi törəmələri 90 faiz hallarda bədxassəli deyil

## Həqiqət Vəliyeva: İlk mərhələdə əksər bədxassəli şişlərdən cərrahi müalicə ilə qurtulmaq mümkündür

ATU-nun Onkologiya kafedrasının dosenti, onkoloq-cərrah, mammoloq Həqiqət Vəliyeva ölkə mətbuatına açıqlama verib.

**- İlk öncə bilmək istərdik ki, süd vəzi xərçəngi hansı hallarda yaranır?**

- Süd vəzi xərçəngi süd vəzinin normal hüceyrələrindən əmələ gəlmiş şiş hüceyrələrinin çoxalması nəticəsində yaranır. Orqanizmin bütün hüceyrələri öz vəzifələrini yerinə yetirdikdən sonra məhv olur. Şiş hüceyrələrində isə bu mexanizm işləmir. Həmçinin şiş hüceyrələrinin inkişafı, artıb çoxalması orqanizmin tənzimedici mexanizmlərinə tabe olmadan baş verir. Əgər bu hüceyrələri məhv edən və ya inkişafını dayandıran kənar müdaxilələr olunmasa, onlar öz inkişaflarını fasiləsiz olaraq davam etdirirlər.

**- Xoşxassəli şişlər nə zaman bədxassəli şişə çevrilir?**

- Süd vəzi törəmələri 90 faiz hallarda bədxassəli deyil. Süd vəzində yaranmış hər hansı bir xoşxassəli şişin bədxassəli şişə çevrilməsi üçün uzun müddət tələb olunur. Bəzən isə xoşxassəli şiş aşkar edilən insanın düzgün olmayan həyat tərzi, zərərli vərdişləri, qeyri-sağlam qidalanması, hormonal preparatların nəzarətsiz istifadəsi və s. amillər bu müddəti qısaldaraq, şişlərin böyüməsinə və bədxassəli törəmələrin inkişafına səbəb ola bilər.

Süd vəzinin ən çox rast gəlinən xoşxassəli şişi olan fibroadenomalar 1 faiz hallarda bədxassəli şişə çevrilir. Ən çox bədxassəli şişə çevrilmə ehtimalı olan süd vəzinin xoşxassəli şişi isə süd vəzinin axardaxili papillomalarıdır. Ədəbiyyatda bu riskin 10-33 faizə qədər olduğu haqda məlumatlar var.

**- Süd vəzi xərçənginin müalicəsi ilk və sonrakı mərhələlərdə necə aparılır?**

- Müalicə ilk və sonrakı mərhələlərdə bir-birindən fərqlənir. İlk mərhələdə əksər bədxassəli şişlərdən cərrahi müalicə ilə tamamilə qurtulmaq mümkündür. Şüa müalicəsini əlavə etməklə cərrahi müalicənin həcmini azaldaraq, bu mərhələdə çox az hallarda süd vəzinin götürülməsi aparılır. Bəzi hallarda isə endokrin terapiyanın istifadəsi xəstələrin residivsiz sağ qalma müddətinin artmasına yardım edir.



Artıq sonrakı mərhələlərdə kimyəvi terapiya təyin olunur. Daha gec mərhələlərdə xəstəliyin əsas müalicə üsulu olan cərrahiyyədən ilkin olaraq istifadə edilməsi lazımi effekt vermir. Bu hallarda neoadyuvant kimya terapiya adlandırdığımız, yəni cərrahiyyədən öncə aparılan kimya terapiya ilə müalicəyə başlamaq məcburiyyətində qalırıq. Xəstəliyin IV mərhələsində isə nadir hallarda cərrahi üsulla müalicə aparılır. Bu mərhələdə daha çox kimyəvi terapiya, şüa müalicəsi və immunoterapiya metodları tətbiq olunur.

# Avtomobillər küçədə, zəhəri evimizdə...

## Bakının rütubətli isti havası dəm qazının toksiki təsirini daha da gücləndirir

**Son vaxtlar havada dəm qazının normadan artıq olması haqda tez-tez eşidirik. Dəm qazı nədir, hansı fəsadlara yola aça bilir və onun səviyyəsini artıran amillər hansılardır?**



ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Şahalı Səmədov bildirir ki, böyük şəhərlərdə atmosfer havasını çirkləndirən mənbələrə sənaye müəssisələri, yaşayış və ictimai binaları qızdırmaq üçün fəaliyyət göstərən istilik-elektrik mərkəzləri, müxtəlif nəqliyyat vasitələri və s. aiddir: “Hazırda dünyanın böyük şəhərlərində hava mühitinin çirkləndiriciləri sırasında avtomobil nəqliyyatının payı 70%-dən çox təşkil edir. Avtomobillərin işlənmiş tullantı qazlarının tərkibində 200-dən çox toksik maddə, o cümlədən dəm qazı və azot oksidləri, aldehidlər, qurğuşun birləşmələri, polisiklik aromatik karbohidrogenlər əsas yer tutur”.

Mütəxəssisin sözlərinə görə, karbon-oksid və ya dəm qazı - üzvi maddələrin sona qədər yanmaması nəticəsində yaranır. Səyyar çirkləndirici adlanan avtomobil nəqliyyatı tüstüsündə və işlənmiş qazların tərkibində dəm qazı 7,7-13,5 % təşkil edir. Qapalı yerlərdə və açıq atmosferdə fövqəladə hallarda onun miqdarı 30-50%-ə qədər də ola bilər: “İysiz, rəngsiz və havadan yüngül olan dəm qazı orqanizmə tənəffüs yolları ilə daxil olub, həmin yolla da xaric olur. Alveolların divarından qana keçdikdə hemoqlobinlə asanlıqla birləşərək karboksihemoqlobin əmələ gətirir. Qeyd etmək lazımdır ki, atmosfer havasında dəm qazının miqdarı heç vaxt kəskin zəhərlənmə törədə biləcək həddə olmur. Bu qazdan kəskin zəhərlənmə adətən qapalı yerlərdə birdəfəlik yüksək dozaların (500-1500 mq/m3) təsirindən baş verir; xəstəliyin gedişi yüngül, orta və ağır formalarda müşahidə olunur. Xronik zəhərlənmə adətən az dozanın uzunmüddətli təsirindən baş verir. Xəstəni başağrı, başgicəllənmə, yuxusuzluq narahat edir. İştaha pozulur, xəstə arıqlayır, yorğunluq hiss edir, hafizəsi və cinsi fəaliyyəti zəifləyir, ürək nahiyəsində ağrı, təngnəfəslik, mərkəzi sinir sisteminin funksional pozuntuları - asteniya, vegetativ disfunksiya, damar spazmı, hipertenziya qeyd edilir”.

Dəm qazının havadan yüngül olduğu üçün əsasən atmosferin yuxarı qatlarına qalxdığını və bir hissəsinin “istixana” qazlarından olan karbon qazına çevrildiyini deyən Ş.Səmədov, heç də həmişə belə olmadığını da nəzərə çatdırır: “Şəhərlərin ensiz, hər iki tərəfdən hündürmərtəbəli binalarla əhatə olunmuş küçələrində avtomobillərin sürəti azalır (tıxaclar və s. hesabına). Nəticədə xaric olan işlənmiş qazlar, o cümlədən dəm qazı insanların tənəffüs zonasındakı havanın tərkibində toplana bilir və xroniki zəhərlənməyə xas əlamətlərlə özünü təzahür etdirir. Xaric olunan dəm qazının miqdarı nəqliyyatın növü, mühərrikin vəziyyəti, yanacağın keyfiyyəti və s. amillərdən də asılıdır. Araşdırmalar göstərib ki, belə şəhərlərin küçələrində hərəkəti nizamlayanların qanında karboksihemoqlobinin səviyyəsi 3-4 %-ə qədər yüksəlir. Eyni zamanda sürücülərin qanında karboksihemoqlobinin miqdarının artması və bununla əlaqədar qəza hallarının çoxalması barədə əsaslı məlumatlar var”.

Mütəxəssis qeyd edir ki, rütubətli isti iqlimə malik Abşeron yarımadasında atmosferə atılmış dəm qazı Yer səthinə yaxın hündürlükdə və binaların mənzillərində toplana bilər. Yüksək temperatur isə onun toksiki təsir effektini daha da gücləndirir. Normaya görə, dəm qazının yol verilən konsentrasiyası açıq atmosferdə 1 mq/m3, iş yerləri havasında isə 20 mq/m3-ə qədərdir.

Profilaktik məqsədlə yaşayış məskənləri düzgün planlaşdırılmalı, arxitektura-tikinti sistemlərində müvafiq norma və qaydalara əməl olunmalı, yaşayış zonası yaşıllaşdırılmalı, çirklənmə mənbələrində qurğuların hermetikləşdirilməsi təmin edilməlidir. Qapalı iş yerlərində yerli və ümumi ventilyasiya sistemi quraşdırılmalıdır. Dəm qazının havadakı miqdarına müvafiq qurumlar tərəfindən müntəzəm nəzarət olunmalıdır.

**Ürək xəstəlikləri dünyada ən çox ölümə səbəb olan xəstəliklərdən biridir. Amma bir çox hallarda bu xəstəliklər önlənə və müalicə edilə bilir.**



# Ürək xəstəliklərinin əsas səbəbi qeyri-sağlam həyat tərzidir

Dünya Ürək Günü 1999-cu ildə Ümumdünya Ürək Federasiyasının təşəbbüsü ilə təsis edilib. Ümumdünya Səhiyyə Təşkilatı, UNESCO və digər mühüm təşkilatlar həmin təşəbbüsü dəstəkləyiblər. ÜST ilə əməkdaşlıq çərçivəsində bu günün proqramına kütləvi sağlamlıq yoxlamaları, ictimai mühazirələr, tamaşalar, elmi forumlar, sərgilər, konsertlər, gəzintilər və idman yarışları daxildir. Hər il keçirilən Ürək Günü ürəyin sağlamlığı ilə bağlı müəyyən mövzuya həsr edilir.

Hazırda ürək-damar xəstəlikləri dünyada ölümün və əlilliyin əsas səbəblərindən biri sayılır və hər il 17,5 milyondan çox insanı həyatdan aparır. Ürək-damar xəstəlikləri və insultun yaranmasının risk amilləri qan təzyiqinin yüksəlməsi, qanda xolesterin və qlükozanın miqdarının artması, siqaret çəkmək, artıq çəki, piylənmə və fiziki hərəkətsizlik, meyvə-tərəvəzlərlə qidalanmanın azlığıdır.

Yeri gəlmişkən, ürək-damar xəstəliklərinin inkişafına gətirib çıxaran səbəb uşaq və yeniyetmə yaşlarında formalaşan qeyri-sağlam həyat tərzidir. Ona görə də xəstəliyin profilaktikasına uşaq vaxtlarından başlamaq lazımdır.

Dünya Ürək Federasiyasının məlumatına görə, sağlam həyat tərzi keçirmək, tütün istifadəsini məhdudlaşdırmaq, qidalanmanı nəzarətdə saxlamaq və fiziki fəallığı artırmaq hesabına infarkt və insult nəticəsində baş verən erkən ölümlərin 80 faizinin qarşısını almaq olar.

Dünya alimlərinin ürəklə bağlı apardığı araşdırmalar və müqayisələr maraq doğurur. Onların fikrincə, insan ürəyi bir ömür boyu (70-80 il) təxminən 3500 standart dəmir yolu sisternini doldura bilər. 70 il ərzində insan ürəyi 2.500.000.000 dəfədən çox döyünür. Hər sıxılma zamanı ürək damarlara 70-80 ml qan vurur. Fiziki fəaliyyət zamanı pompalanan qanın həcmi bir neçə dəfə artır. Maksimum fiziki güclə 4-5 dəfə, hər zərbə ilə damarlara 200 ml-dən çox qan vurulur.

Göründüyü kimi, ürəyimiz çox çalışqandır. Onun qədrini bilməli və qorumalıyıq.

# Tələbkar müəllim, bacarıqlı həkim, qayğıkeş insan

**Bu günlərdə tanınmış həkim-infeksionist, ATU-nun Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Cəlal İsayevin 70 yaşı tamam olur.**



Cəlal Paşa oğlu İsayev 1953-cü ildə Qərbi Azərbaycanın Hamamlı mahalının Saral kəndində anadan olub. O, 1971-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olub və 1977-ci ildə Xankəndi şəhərində əmək fəaliyyətinə başlayıb. 1978-82-ci illərdə Qərbi Azərbaycanın Hallavar bölgəsində həkim məntəqəsinin müdiri, 1982-83-cü illərdə Bakıda ET Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunda, 1983-90-cı illərdə ATU-nun Yoluxucu xəstəliklər kafedrasında baş laborant, assistent vəzifələrində işləyib. 1995-ci ildə namizədlik dissertasiyasını müdafiə edən Cəlal müəllim 2000-ci ildə dosent vəzifəsinə seçilib.

C.İsayev 1994-2012-ci illərdə ATU-nun İstehsalat praktikası, II Müalicə-profilaktika və I Müalicə profilaktika fakültələrində dekan müavini, 2015-2020-ci illərdə isə Səhiyyə Nazirliyinin baş mütəxəssisi olub. Hazırda Səhiyyə Nazirliyinin ekspertidir.

Tibbi biliklərin geniş təbliği ilə yanaşı, respublikada milli kadrların hazırlanması məsələsi onun qarşısına qoyduğu əsas məqsədlərdən biridir. Belə ki, o, dəfələrlə öz ixtisasına uyğun İxtisaslaşmış Müdafiə Şurasının, Problem komissiyasının və Abrobasiya Şurasının üzvü olub. 2022-ci ildə ATU-nun Yoluxucu xəstəliklər kafedrasının müdiri seçilən C.İsayev tələbə və rezidentlərin elmi biliklərə, praktik vərdişlərə yiyələnməsi üçün məqsədyönlü fəaliyyətini davam etdirir. O, 85-dən çox elmi məqalənin və iki metodik vəsaitin müəllifidir. 2009-cu ildə Təhsil və Səhiyyə nazirliklərinin Elmi-Tibbi şuralarının qərarı ilə onun 443 səhifə həcmində "İnfeksion xəstəliklər" adlı dərsliyi çap edilib. 2018-ci ildə "Əməkdar həkim" adına layiq görülən Cəlal müəllim universitetin elmi-ictimai və mədəni tədbirlərində də fəal iştirak edir.

Daim özünə və ətrafındakılara qarşı tələbkar olan C.İsayev millətini, vətənini sevən bir insan olmaqla yanaşı, həm də qayğıkeş və mehriban ailə başçısıdır.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kollektivə, eləcə də gənclərə nümunə olan Cəlal müəllimi yubileyi münasibətilə təbrik edir, ona uzun ömür və can-sağlığı arzulayırlar.

**Bu günlərdə ATU-nun Əczaçılıq kimyası kafedrasının müdiri, əczaçılıq elmləri doktoru, professoru Tahir Süleymanovun 60 yaşı tamam olur.**

**Tahir Abbasəli oğlu Süleymanov 1986-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Əczaçılıq fakültəsini fərqlənmə diplomu ilə bitirib və fakültə Elmi Şurasının təqdimatı ilə İnstitutda baş laborant vəzifəsinə qəbul olunub.**

# Həyatını ATU-ya bağlamış alim

T.Süleymanov 1988-2013-cü illərdə Farmakoqnoziya və botanika kafedrasında aspirant, assistent, baş müəllim, dosent və professor vəzifələrində işləyib. O vaxtdan indiyədək Əczaçılıq kimyası kafedrasının müdiridir.

1994-cü ildə fəlsəfə doktorluğu, 2007-ci ildə isə elmlər doktorluğu dissertasiyalarını müdafiə edən T.Süleymanov 292 elmi işin, o cümlədən 11 patentin, 5 dərslik, 3 dərs vəsaiti, 3 metodik vəsait və 2 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında 4 nəfər əczaçılıq üzrə fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülüb, 2 nəfər kafedralararası müzakirələrdən keçib, 4 nəfər isə dissertasiya işi üzərində çalışır.

Professor T.Süleymanovun həmrəhbərliyi ilə kafedrada Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun dəstəyi ilə qrant layihəsi həyata keçirilib və Əczaçılıq üzrə Elmi-tədqiqat laboratoriyası qurulub ki, bu da elmi işlərin səmərəliliyinin artırılmasına zəmin yaradır.

Universitetin və fakültənin ictimai həyatında da fəallıq göstərən T.Süleymanov 2012-2017-ci illərdə Əczaçılıq fakültəsinin dekanı vəzifəsində çalışıb. Həmçinin Azərbaycan Əczaçılar Assosiasiyasının sədri olaraq uzun illərdən sonra keçirilən "Azərbaycan Əczaçılarının V Beynəlxalq Konqresi"nin işinə rəhbərlik edib.

Hal-hazırda ATU-nun və Əczaçılıq fakültəsinin elmi, Ali Attestasiya Komissiyasının "Tibb və Əczaçılıq", Səhiyyə Nazirliyinin "Farmakoloji və Farmakopeya" üzrə ekspert şuralarının üzvüdür. Eyni zamanda "Əczaçılıq və farmakoterapiya" jurnalının baş redaktoru, AMEA-nın problem şurasının üzvü kimi fəaliyyət göstərir.



Öz işində tələbkar olan, obyektiv insan kimi tanınan T.Süleymanov universitetin əməkdaşları və tələbə kollektivi arasında böyük hörmət qazanıb.

Əczaçılıq kimyası kafedrasının əməkdaşları professoru yubiley yaşı münasibətilə ürəkdən təbrik edir, ona cansağlığı və yeni-yeni uğurlar arzulayır!

## ATU-nun tələbəsi karate üzrə dünya ikincisi olub



**Sentyabrın 8-10-da Özbəkistanın paytaxtı Daşkənddə karate üzrə dünya çempionatı keçirilib.**

Təbib" idman klubunun sədri, əməkdar məşqçi Qələndər Aslanovun bildirdiyinə görə, çempionatda yığma komandanın tərkibində Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin 3-cü kurs tələbəsi Vüsal Seyidov 65 kq çəki dərəcəsində ölkəmizi təmsil edib: "Ümumilikdə 32 ölkənin iştirak etdiyi bu mötəbər turnirdə tələbəmiz Vüsal Seyidov 7 görüş keçirib. Final görüşünə qədər Türkmənistan, Qazaxıstan, İsrail, Hindistan, Böyük Britaniya və Özbəkistan idmançıları üzərində tam qələbə qazanıb. Təəssüf ki, finalda yerli hakimlərin idarə etdiyi görüşdə haqsızlıqla üzləşib. İdmançımız hakimlərin tərəfkeşliyi ucbatından özbəkistanlı idmançıya məğlub olub və dünya çempionatının gümüş medalını qazanıb.

Bu qələbə münasibətilə tələbəmiz Vüsal Seyidovu təbrik edir, daha uğurlu nəticələr arzulayırıq".

# Universitetimizin mühafizəsi etibarlı şəkildə təşkil olunur



**Hər bir obyektin və orada işləyənlərin təhlükəsizliyi mühafizənin etibarlı və düzgün təşkilindən asılıdır. Bu isə mühafizəçilərdən öz vəzifələrinə məsuliyyətlə yanaşmağı, verilən təlimat və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməyi tələb edir. Bəs Azərbaycan Tibb Universitetinin mühafizə sistemi necə təşkil olunub? Etibarlı əllərdədirmi? .**

Universitetin mühafizəsinin təşkili ilə bağlı "Təbib" qəzetinə "GESCO" ASC-nin Mühafizə Departamentinin xidmət rəisi Həsrət Rəsulov ətraflı məlumat verərək, builki yeniliklərdən də söhbət açıb: "2018-ci ildən etibarən universitetin inzibati binasının, tədris korpuslarının, yataqxanaların, idman kompleksinin mühafizəsini təşkil edirik. Bu müddət ərzində mühafizəni yüksək şəkildə təmin edə bilmişik və universitet rəhbərliyi fəaliyyətimizdən razıdır.

Diqqətinizə çatdırım ki, bu tədris ilindən etibarən universitetin inzibati binasında turniketlər işə salınıb. Artıq inzibati binaya daxil olan müəllim və tələbələrin, universitet əməkdaşlarının kart vasitəsi ilə buraxılış rejimi həyata keçirilir.

Növbəti aylarda universitetin daxilindəki turniketlərin də fəaliyyət göstərməsi planlaşdırılır. Artıq bu istiqamətdə lazımi işlər görülür. Nəticədə, bizim işimiz bir qədər asanlaşacaq və əraziyə kənar şəxslərin daxil olmasının qarşısı tam alınacaq".

Xidmət rəisi universitetə gələn qonaqlar üçün "Qonaq kartı"nın nəzərdə tutulduğunu da bildirib. Qonaq hansı şöbəyə gəlirsə, ora ilə əlaqə saxlanılacaq, razılıq verildikdən sonra müvafiq kitabda qeydiyyat aparılmaqla daxil olmasına icazə veriləcək: "Mühafizəçilərimizi hər gün buraxılış rejimi, kənar şəxslərin əraziyə daxil olmaması, ərazidə fövqəladə vəziyyət şəraitinin yaranmaması, texniki təhlükəsizlik və s. baxımından təlimatlandırırıq. Ali təhsilli, ingilis dilini bilən mühafizəçilərimiz də var. Tibb Universitetində çoxlu əcnəbi tələbə olduğu nəzərə alınıb və bu sarıdan sıxıntı yaşamırıq.

Polislər də bizə yaxından kömək edir, universitetin mühafizəsində 4 polis nəfərinin xidmətindən istifadə olunur. Onların fəaliyyətindən çox razıyıq".

Apardığımız müşahidələr də onu deməyə əsas verir ki, universitetin ərazisinə daxil olanlar mühafizəçilər tərəfindən ciddi şəkildə yoxlanılır. Kənar şəxslərin içəri daxil olmasına icazə verilmir. Əminliklə deyə bilərik ki, universitetimizin mühafizəsi etibarlı şəkildə təşkil olunub.



# Tələbələrimiz "KOMANDO" hərbi düşərgəsində fərqlənib

**Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə 6-11 sentyabrda Quba Olimpiya Kompleksində "KOMANDO" hərbi düşərgəsi təşkil olunub. Düşərgədə ölkənin müxtəlif regionlarından olan ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak edib.**



"Təbib" idman klubunun təşəbbüsü ilə Azərbaycan Tibb Universiteti Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri - Toğrul Abdullayev, Sənan Quliyev, Kənan Quliyev və Salman Sadıqov təmsil edibilər. Əməkdar məşqçi Qələndər Aslanovun verdiyi məlumata görə, beş günlük düşərgə hərbi ağırlaşdırılmış formatda keçirilib. Ekstremal şəraitdə fəaliyyətlər, əyləncəli hərbi və intellektual oyunlar, hərbi təlimlər, şəbəkələşmə və digər fəaliyyətlər tələbələrin yaddaşında iz buraxa bilib: "Tələbəmiz Toğrul Abdullayev mühəndis-istehkam hazırlığında I, qumbaraatma yarışlarında II yer tutub, rəngarəng nömrələr, nümunəvi çıxışları ilə fərqlənib. Salman Sadıqov kəşfiyyat topoqrafiyasında ikinci olub. Kənan Quliyev intellektual bilik yarışmasında birinci, Sənan Quliyevin komandası ümumi qrupda ikinci yerə layiq görülüb".

Q.Aslanov onu da bildirib ki, düşərgənin qaydalarına əsasən, nizam-intizama önəm verilib. Belə ki, istər təlimlərdə, istər yeməkxanada, istərsə də qaldıqları məkanda kim qayda pozuntusuna yol veribsə, onun ümumi balından cəza olaraq müəyyən qədər çıxılıb. Hətta qaydaları kobud şəkildə pozduqları üçün bəzi komandaları təmsil edən beş tələbə yarışlardan uzaqlaşdırılıb.

Qeyd edək ki, ATU tələbələri bu düşərgədə hərbi nizam-intizam qaydalarına görə ən yüksək bal toplayıb. Düşərgənin son günü tələbələrimizə təlimatçı zabitlər tərəfindən təşəkkür elan edilib və Gənclər və İdman Nazirliyinin sertifikatı təqdim olunub.

### Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları Prezidentin fərdi təqaüdçüsü, Əməkdar elm xadimi, REA-nın akademiki, professor Vaqif Şadlinskiyə əzizi

**Adilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

### Etibarsız sayılır

Salman Afnan Riyadh Salman (qrup 218İ1A); Cəfərov Səlim Emin oğlunun (qrup 622A4a) tələbə bileti, Salıkçı Gülcan Abdulgafur (qrup 118A5b); Ahmet Kapusuz Eyüpun (qrup 118İ2c) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0016
Sayı 800